**Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiya haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının sərhəd-nəzarət buraxılış məntəqələrində miqrasiya prosesləri ilə məşğul olan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, ölkəyə giriş-çıxış əməliyyatlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının təmin edilməsi, habelə bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə aşağıdakı tərkibdə Komissiya yaradılsın: [1]

***Komissiyanın sədri***[2]

*Şahin Mustafayev - Azərbaycan Respublikası Baş Nazirinin müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası Maliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*[3]
*"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*"Azərbaycan Hava Yolları "Qapalı Səhmdar Cəmiyyətinin prezidenti.*

2. Komissiyaya tapşırılsın ki, sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin etsin və görülən işlər barədə Azərbaycan Respublikası Prezidentinə mütəmadi məlumat versin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 20 may 2000-ci il
423

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 28 iyul 2004-cü il tarixli 326 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 7, maddə 568**)
2. 11 aprel 2014-cü il tarixli **376** nömrəli Sərəncamı Azərbaycan Respublikası Prezidentinin ("**Respublika" qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 391)**
3. 1 noyabr 2015-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1301)**
4. 21 yanvar 2017-ci il tarixli **1204** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 yanvar 2017-ci il, 14 ; "Xalq" qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 51)**
5. 11 mart 2020-ci il tarixli **1918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3 , maddə 303)**
6. 9 iyul 2020-ci il tarixli **2149** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 913)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 28 iyul 2004-cü il tarixli 326 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 7, maddə 568**) ilə Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiyanın tərkibinə Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri "**Eldar Mahmudov"** daxil edilmiş**, "Namiq Abbasov**" Komissiyanın tərkibindən çıxarılmışdır.

1 noyabr 2015-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1301**) ilə 1-ci hissədə "**Eldar Mahmudov – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri** " sözləri "**Mədət Quliyev –**

**Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini**” sözləri ilə əvəz edilmişdir.

21 yanvar 2017-ci il tarixli **1204** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 22 yanvar 2017-ci il, 14 ; “Xalq” qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 51**) ilə 1-ci hissəsində “**Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini**” sözləri “**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi** ” sözləri ilə əvəz edilmişdir.

11 aprel 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (“ **Respublika” qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 391**) ilə 1-ci hissəsində “**Aydın Bəşirov - Dövlət Xəzər Gəmiçiliyinin rəisi**” sözləri “**Rauf Vəliyev – “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri** ” sözləri ilə əvəz edilmişdir.

[2] 11 mart 2020-ci il tarixli **1918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 12 mart 2020-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3 , maddə 303**) ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| | ~~**Komissiyanın sədri:**~~ |
| ~~Abid **Şərifov**~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin müavini~~ |
| | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~*Mədət **Quliyev***~~ | ~~*- Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi*~~ |
| ~~Ramil **Usubov**~~ | ~~- Azərbaycan Respublikasının Daxili İşlər naziri~~ |
| ~~Kəmaləddin **Heydərov**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri~~ |
| ~~İlqar **Fəti-zadə**~~ | ~~- Azərbaycan Respublikasının Maliyyə nazirinin birinci müavini~~ |
| ~~İlqar **Rəhimov**~~ | ~~- Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin birinci müavini~~ |
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini~~ |
| ~~Cahangir **Əsgərov**~~ | ~~- Azərbaycan Hava Yolları Dövlət Konserninin baş direktoru~~ |
| ~~Ziya **Məmmədov**~~ | ~~- Dövlət Dəmir Yolu İdarəsinin rəisi~~ |
| ~~Rauf **Vəliyev**~~ | ~~- “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri~~ |
| ~~Ağadayı **Ağayev**~~ | ~~- Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin xarici iqtisadi əlaqələr şöbəsi müdirinin birinci müavini~~ |

[3] 9 iyul 2020-ci il tarixli **2149** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 913**) ilə 1-ci hissəsinə “**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi** ” sözlərindən sonra “**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri** ” sözləri əlavə edilmişdir.